2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 01 yanvar 2015-ci il tarixli 107 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 03 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 71 saylı Masallı kənd seçki dairəsinin Ərkivan bələdiyyəsinə qeydə alınmış namizədlər Əzizov Eynulla Zülfüqar oğlu, Cahangirov Afər Nadir oğlu, Nəzərov İldırım Kamil oğlu və digərlərinin 01 yanvar 2015-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdıraraq aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırmaya qəbul edilmişdir.

Aparılmış ilkin araşdırma ilə müəyyən edilmişdir ki, müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olduğundan müvafiq Təlimatın 8.6-cı maddəsinə əsasən aidiyyəti üzrə dairə seçki komissiyasına göndərilməlidir. Ancaq 71 saylı Masallı kənd seçki dairəsinin dairə seçki komissiyasından daxil olmuş arayışdan və dairə seçki komissiyasının qərarlarının surətlərindən görünür ki, həmin şəxslər tərəfindən eyni məzmunlu şikayətlə dairə seçki komissiyasına da müraciət edilmiş və dairə seçki komissiyası qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada qeyd edilən müraciətləri araşdıraraq hər bir müraciət üzrə müvafiq qərar qəbul etmiş və qərarların surəti poçt vasitəsi ilə şikayətçilərə göndərilmişdir. Ona görə də hazırki müraciət üzrə dairə seçki komissiyasının müvafiq qərarları mövcud olduğundan müraciətin araşdırılmasına xitam verilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 71 saylı Masallı kənd seçki dairəsinin Ərkivan bələdiyyəsinə qeydə alınmış namizədlər Əzizov Eynulla Zülfüqar oğlu, Cahangirov Afər Nadir oğlu, Nəzərov İldırım Kamil oğlu və digərlərinin Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 01 yanvar 2015-ci il tarixli 107 saylı müraciətlərinin araşdırılmasına xitam verilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov